**Polad Bülbüloğlu – 80**

# Böyük səhnədə yubiley məclisi



**Heydər Əliyev Sarayında Xalq artisti, görkəmli müğənni, bəstəkar, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlunun 80 illik yubileyinə həsr olunan “Qayıdış” adlı gecə keçirilib.**

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə reallaşan konsert proqramını dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, ictimaiyyət nümayəndələri və Polad Bülbüloğlu musiqisinin pərəstişkarları izləyiblər.

Əvvəlcə Polad Bülbüloğlunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 3 fevral tarixli sərəncamı ilə 1-ci dərəcəli “Vətənə xidmətə görə” ordeninə layiq görüldüyü bildirilib və sərəncamın mətni oxunub. Sonra Rusiya Prezidentinin Beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy qonşu ölkənin dövlət başçısının, Baş nazir və bir sıra hökumət üzvlərinin qocaman sənətkara yubiley təbriklərini çatdırıb.

Daha sonra konsert proqramı təqdim olunub. Xalq artisti Polad Bülbüloğlu onilliklərdən bəri musiqisevərlərin könlünü oxşayan əsərlərini, xalq mahnımızı oxuyub. Onu tanınmış pianoçular, Xalq artistləri Fərhad Bədəlbəyli və Murad Adigözəlzadə, Azərbaycan Dövlət Rəqs Ansamblının üzvləri də müşayiət ediblər. Gecədə digər ünlü sənətçilər də musiqi çələngi təqdim ediblər. İfaçıları Murtuza Bülbülün dirijorluğu ilə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri müşayiət edib.

Yubilyar sənətkarın ifasında “Şən Azərbaycan” mahnısı ilə başlayan gecə bəstəkarın “Odlar yurdum mənim” nəğməsi ilə başa çatıb.

*XQ*